MahadSunnah

هيثم سرحان

# لا إله إلا الله

# La ilaha illallah


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

**Tərcümə edən: İlqar Eyvazoğlu**





Azərbaycan dili

اللغة الأذرية


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

# Lə iləhə illəllah

Lə iləhə illəllah kəliməsi mövcud olan ən əzəmətli kəlimədir. Allah bunu yerinə yetirmək üçün məxluqatı yaratmış, elçilər göndərmiş və kitablar nazil etmişdir.

Lə iləhə illəllah kəliməsi:

- Təqva kəlməsi,
- Dinin əsası
- Və imanın sütunudur.

Lə iləhə illəllah kəliməsi:

- Ən möhkəm bağdır.
- Ondan yapışan nicat tapar.
- Onu deyərək ölən ondan sonra bədbəxt olmayacağı bir xoşbəxtlik tapar.

Bu kəlmənin fəzilətləri və dindəki mövqeyi vəsf edənlərin vəsfindən və ariflərin bildiklərindən daha artıqdır.

Cabirdən (Allah ondan razı olsun) gələn hədisdə buyurur:

Peyğəmbərin ﷺ belə dediyini eşitdim:

“Ən fəzilətli zikr Lə iləhə illəllah kəliməsidir.”[1]

Dünya əhli arasında qazanan kəs, bu sözü hər zamanda və hər yerdə çox söyləyən kəsdir.

Belə ki, onun mənalarını düşünməkdən, məqsədini xatırlamaqdan dili yorulmamalı və qəlbi onun üzərində düşünməkdən bezməməlidir.

Bu kəlimə qeydli və ümumi olan zikrlərdən biridir.

Müsəlman azad və məşğul vaxtlarında, oyaq və yatarkən, yaxında və uzaqda, səyahətində və istirahətində, oturuşunda və duruşunda, namazında və orucunda, həcc və ümrəsində, getdiyi hər yerində bu zikri oxumalıdır.

Bu zikrin tələb olunduğu yerlər:

- ☑ Dəstəmazdan sonra,
- ☑ Gecə vaxtı yuxudan oyandıqda
- ☑ Səhər günün əvvəlində və axşam
- ☑ Namazı bitirib salam verdikdən sonra,
- ☑ Sıxıntı və kədər adında.
- ☑ Arafa günündə.

---

[1] Tirmizi (3383)

Peyğəmbər ﷺ buyurub:

"Ən fəzilətli dua,  Arafa günündə olan duadır. Mənim və məndən əvvəl olan Peyğəmbərlərin dedikləri ən xeyirli dua: Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul mulku va ləhul həmdu  va huva alə kulli şeyyin qadir!"[2]

[2] Tirmizi (3585)